**Dövlət Statistika Komitəsi nümayəndələrinin Moskva şəhərində "Seçmə müayinələrinin təşkili" məsələləri üzrə seminarda iştirakı haqqında**

Azərbaycan Respublikası Dövlət Statistika Komitəsinin nümayəndələri Əhalinin həyat səviyyəsi və ev təsərrüfatlarının tədqiqatı statistikası şöbəsinin müdiri Yaşar Paşa və Statistika işlərinin əlaqələndirilməsi şöbəsinin məsləhətçisi Şahin Sadıqlı MDB Dövlətlərarası Statistika Komitəsi və Rusiyanın Ali İqtisad Məktəbi Elmi Tədqiqat Universitetinin dəvətinə əsasən cari il aprel ayının 23-dən 27-dək Moskva şəhərində təşkil olunmuş "Seçmə müayinələrinin təşkili" məsələləri üzrə seminarda iştirak etmişlər. Seminarda Azərbaycan Respublikasının nümayəndələri ilə yanaşı Belarus, Ermənistan, Qazaxıstan, Qırğızıstan, Özbəkistan, Moldova, Rusiya, Tacikistan, Türkmənistan və Ukraynadan (hər birindən 2 mütəxəssis) nümayəndələr iştirak etmişlər. Seminar bütünlüklə seçmə müayinələrin təşkil olunmasına, seçmə məlumatları üzrə baş məcmunun qiymətləndirilməsinə, göstəricilərinin keyfiyyətinin öyrənilməsinə, məlumatların işlənməsi zamanı SPSS proqramının tətbiqinə həsr olunmuşdur.



Tədbirdə çıxış edən məruzəçilər seçmə məcmusu, seçmənin əsası, seçmə planı, ehtimalların hesablanması, qeyri-təsadüfi seçmə, həmçinin müayinənin təşkil olunması üçün ilk növbədə hansı qərarların qəbul olunmasının daha səmərəli ola biləcəyinə dair məlumatlar vermişlər. Qeyd olunmuşdur ki, səmərəli müayinə keçirmək üçün ilk növbədə müayinənin məqsədi, hansı vahidlərin müşahidə olunması, müşahidənin dövriliyi, sərhədləri və hansı metodlarla keçiriləcəyi dəqiqləşdirilməlidir. Çox mərhələli ərazi seçməsi regionların seçilməsi ilə başlayır, şəhər və kənd ərazilərinin, yaşayış məntəqələrinin, ev təsərrüfatlarının və respondentlərin seçilməsi ilə başa çatdırılır.

Ehtimal seçməsində əksər hallarda baş məcmunun həcmi, baş məcmudakı bəzi meyarlara cavab verən vahidlərin payı, əlamətlərin orta və yekun qiymətləri və göstəricilərin nisbətləri qiymətləndirilir.

Seçmənin və müayinənin ümumi xətası, əhalinin və ev təsərrüfatlarının seçilməsinin formalaşdırılmasına ümumi yanaşma, iki mərhələli seçmə, ərazi seçməsinin istifadə olunmasının səbəbləri, ev təsərrüfatlarının seçilməsi və əsasları, seçmənin həcmi məsələləri geniş şəkildə izah olunmuşdur.

Daha sonra məşğulluq məsələləri üzrə əhalinin seçmə müayinəsinin keçirilməsinin metodikası müzakirə edilmişdir. Bu zaman ümumi müddəalar, hesabat dövrü, müayinənin obyekti və vahidləri, seçmənin əsası və onun formalaşdırılmasının mərhələliyi və ölkənin subyektləri arasında seçmə həcminin bölüşdürülməsi məsələləri hərtərəfli təhlil edilmişdir.

Tədbirin sonunda MDB ölkələrində aparılan ev təsərrüfatları tədqiqatının metodologiyası haqqında hər ölkədən bir mütəxəssis öz təqdimatları ilə çıxış etmişlər.